

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 101 (24.238)

*7 iyun 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binasının açılışında iştirak edib





Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Binanın hündürlüyü 12 metr olan foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltəraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli Liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına – qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Qeyd edildi ki, burada Ümummilli Liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olundu ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırıldı ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

***

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, aqrar sığorta mexanizminin tətbiqi aqrar sahənin dinamik inkişafına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilməsi, aqrar sahədə rəqəmsallaşma səviyyəsinin ildən-ilə artmasını təmin edir. Aqrar sahəyə dair müasir innovasiyalar və texnologiyalara, texnoloji yeniliklərə, kənd təsərrüfatı texnikasına, damazlıq heyvanlara əlçatanlığın təmin edilməsi, gübrə bazarının liberallaşdırılması sağlam rəqabət mühitinin formalaşmasına səbəb olub. Məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixrac potensialını yüksəldib. Belə ki, ötən il ölkəmizdən xarici bazarlara 886,1 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac olunub. İxracın həcmi əvvəlki illə müqayisədə 1 faiz artıb.

**AZƏRTAC**

## Vətəndaşlar istənilən dövlət tibb müəssisəsinə ixtisaslaşdırılmış ambulator yardım üçün göndərişsiz müraciət edə biləcəklər

Bu gün muxtar respublikada icbari tibbi sığortanın tətbiqi uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin razılığı ilə muxtar respublika ərazisində ambulator tibbi yardım almaq üçün göndərişlərin verilməsi ləğv edilir. Təbii ki, aparılan bu islahat muxtar respublikada tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək, həmçinin sığortaolunanların tibbi xidmətlərə əlçatanlığının artırılması, əhalinin sağlamlığının qorunması, xəstəliklərin erkən mərhələdə aşkarlanması və ağırlaşmaların qarşısının alınması məqsədi daşıyır.

Qeyd edək ki, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə muxtar respublika sakinləri bundan sonra istənilən dövlət tibb müəssisəsinə ixtisaslaşdırılmış ambulator yardım üçün yaşadıqları və ya qeydiyyatda olduqları ərazidən asılı olmayaraq, göndəriş olmadan həm yaşadığı ərazi üzrə, həm də digər şəhər və rayonlarda istənilən tibb müəssisəsinə müraciət edə biləcəklər.

Qaydaya müvafiq olaraq tibb müəssisələrində yalnız stasionar şəraitdə göstərilən tibbi xidmətlər üçün göndəriş vərəqəsinin verilməsi tələb olunacaq. Bunun üçün vətəndaş ailə həkimi və ya ixtisaslı həkim tərəfindən göndəriş vərəqəsi almalıdır.

Stasionar şəraitdə tibbi xidmətin göstərilməsi üçün göndəriş vərəqəsini müalicə həkimi özünün aid olduğu inzibati ərazi vahidində, orada xidmətin göstərilməsi mümkün olmadıqda tibbi ərazi bölməsindən kənarda yerləşən dövlət tibb müəssisəsinə verə bilər.

Qeyd edək ki, icbari tibbi sığorta əhalinin sosial müdafiəsi forması olaraq sığorta hadisəsi zamanı əhaliyə icbari tibbi sığortanın maliyyə mənbələri hesabına ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın, habelə sığortaolunanlara xidmətlər zərfində nəzərdə tutulmuş şərtlər çərçivəsində tibbi xidmətlərin göstərilməsinə təminat verən dövlətin hüquqi, iqtisadi və təşkilati tədbirlər məcmusudur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universiteti dünyanın ən yaxşı universitetləri sırasında

Naxçıvan Dövlət Universiteti (1001+) Böyük Britaniyanın "Times Higher Education Impact Rankings 2023" reytinq cədvəlində dünyanın ən yaxşı universitetləri arasında yer alıb.

Qeyd edək ki, Impact Rankings Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq universitetlərin qiymətləndirildiyi yeganə qlobal effektivlik cədvəli hesab olunur. Reytinq dörd geniş sahə üzrə hərtərəfli və balanslaşdırılmış müqayisəni təmin etmək üçün tədqiqat, idarəetmə, təbliğat və tədris göstəricilərindən istifadə edir. Təqdim edilən dörd nömrəli "Keyfiyyətli təhsil" dayanıqlı inkişaf məqsədi üzrə reytinq cədvəlində 601-800, dayanıqlı inkişaf məqsədlərinin 7-ci məqsədi "Sərfəli və təmiz enerji" üzrə 601-800, 17-ci dayanıqlı inkişaf məqsədi olan "Məqsədlər üçün tərəfdaşlıq" üzrə 1001+ və son olaraq 10 nömrəli dayanıqlı inkişaf məqsədi "Bərabərsizliyin azaldılması" üzrə reytinq nəticəsi 401-600 olaraq göstərilib.

Əlavə olaraq nəzərinizə çatdıraq ki, "Times Higher Education Impact Rankings 2023" reytinq cədvəlində yer alan dünyanın ən yaxşı universitetləri sırasında Naxçıvan Dövlət Universiteti 7 Azərbaycan ali təhsil müəssisəsindən biridir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Muxtar respublikada 5 ayda 180-ə yaxın elektron imza sertifikatı verilib




Elektron hökumətin əsas atributlarından sayılan elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir. Belə ki, cari ilin ötən dövrü ərzində 5-i sahibkar, 24-ü hüquqi şəxs, 149-u dövlət qurumu olmaqla, ümumilikdə, 178 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim olunub.

Vətəndaşların nəzərinə çatdırılır ki, elektron imza almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim edilməlidir. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu hüquqi şəxslər üçün 72 AZN, dövlət qurumları üçün 58 AZN, sahibkarlar üçün 36 AZN, vətəndaşlar üçün 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir. Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *nmincom.gov.az* və ya *token.sima.az* saytı vasitəsilə əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***



# Yeni yüz ilin qurucusu Qardaş Türkiyə

Son həftələr təkcə regionda deyil, bütün dünyada gündəmi sıx məşğul etmiş Türkiyədəki seçkilər artıq başa çatmış, türk xalqı öz seçimini etmişdir. Son iyirmi il ərzində türk siyasətinə öz adını yazdırmış Rəcəb Tayyib Ərdoğan dövlət başçımız cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da qatıldığı andiçmə mərasimindən sonra yenidən beşillik iqtidar səlahiyyətlərinin icrasına başladı. Bununla da iki turdan ibarət gərgin keçən seçkilərdə öz sözünü demiş Türkiyə seçicisi təkcə ölkəsinin deyil, ona yaxın və uzaq deməndən hər kəsin maraqlarının uzlaşdığı ən doğru seçimini etdi. Türkiyə Cümhuriyyət tarixinin yeni yüz ilinə özünün qəti addımları ilə “Bismillah!” dedi.

Türkiyənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğanın hər açılış mərasimlərinə damğa vuran bu sözləri, əslində, qardaş ölkə liderinin başlatdığı hər missiyanın uğurla başa çatması, şeytanın şərindən, bədnəzərin gözündən qorunmaq üçün təkcə ölkəsinin deyil, bütün insanlığı hifz edəcək ən müstəcəb dua kimi yaddaşımızda qalacaqdır. Hər addımında “Ya Allah!” deyib, icraata başlayan türk lider bununla da ölkəsinin tarixi üçün yeni olacaq bir dövrdə iqtidarda qalmaqla dünya siyasətçilərinin də ağsaqqalı olmağı bacardı.

Şübhəsiz, qardaş ölkədəki prezident və parlament seçkiləri haqqında bir çoxları əvvəlcədən fikirlər səsləndirsələr də, bu mövzuda doğru fikir bildirmək üçün nəticələri gözləmək ən düzgün qərar idi. Belə ki, dünyanın əsas aparıcı informasiya agentliklərinin ana xəbər başlıqlarında yer alan bu seçkilərdə yerli vətəndaşlardan sonra ən çox qardaşlıq bağlarının bir-birinə bu qədər sıx bağladığı azərbaycanlıların türkçülük heysiyəti ön plana çıxırdı. Bunun səbəbi isə təsadüfi olmayıb bir-birinə qardaşlıq telləri ilə bağlı olan xalqlarımız üçün, həm də bütün Türk dünyası üçün ehtimal oluna biləcək uğursuzluğun yaşanmaması və bunun üçün dualar edilməsi ilə təzahür edirdi. Bu, qardaş ölkə vətəndaşı olaraq artıq arxada qalmış seçkiyə istəklərimizin ən sadə və ən səmimi ifadəsi idi.

Ədalətlə bitmiş bu seçkilər Türkiyənin son 20 ildə qət etdiyi məsafə, dünya arenasındakı nüfuzu, eləcə də qarşılaşdığı problemlərin həlli, yaşadığı təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması fonunda formalaşmış güclü milli iradənin seçki bülletenlərinə olan inikası kimi yadda qalacaq. Məhz bu güc, eləcə də Avropa və Asiyanın kəsişməsindəki bu qocaman dövlətin minillik tarixi keçmişi dövründə verdiyi azadlıq savaşları, eləcə də erməni millətçiləri kimi daxili satqınlara qarşı apardığı mübarizələr, böyük güclərin siyasi oyunlarına boyun əymədən keçdiyi çətin sınaqlar, son nəticədə, bütün dünyanın gözü qarşısında hər kəsə sözünü deyə bilən, yaşadığı çətinliklərdən üzüağ çıxan, dostuna sadiq olduğu qədər, düşməninə də kəmfürsətlik etməyən bir Türkiyə yaratmışdır. Bu gün Kanadadan Avstraliyaya qədər dünyada hər kəsin böyük məmnuniyyətlə səyahət etdiyi Türkiyə bu gün özünün tolerant insanları, yüksək milli qonaqpərvərliyi və peşəkar turizm servisləri ilə hər kəsin qəlbində taxt qurmuşdur. Özünün çalışqanlığı və məsuliyyətliliyi ilə bütün dünya ölkələrində hörmətlə qarşılanan türk sərmayəçiləri həyata keçirdikləri layihələr və yaratdıqları iş yerləri ilə ölkəsinin nüfuzunu artırmışdır. Qısa bir müddətdə regional gücdən qlobal güc mərkəzinə çevrilən qardaş ölkənin bu nüfuzu isə, heç şübhəsiz, təkqütblü dünya hakimiyyətinə iddiası olanları narahat etməkdədir. “Dünya beşdən böyükdür!” şüarı ilə dünya nizamının təkcə imperialistlərin əlində olmadığını bəyan edən Türkiyə lideri məhz beş yüz ildən bəri dünyadakı bütün ədalətsizliklərin əsl səbəbkarlarının BMT Təhlükəsizlik Şurasının indiki beş daimi üzvü olduğunu hər yerdə çəkinmədən üzlərinə deməklə bu yolla məzlum xalqların ürəyinə yol tapmışdır. Bunu təkcə sözdə deyil, əməldə də isbat edən Türkiyə bu gün özünü təsdiqləməklə Afrikadan Çinə qədər geniş bir coğrafiyada bir çox inkişaf etməkdə olan ölkələrin çox ehtiyacı olan sosial infrastruktur, nəqliyyat və logistika, təhsil, turizm və mədəniyyət layihələrinə öncüllük edir. Bu ölkələrin öz hökumətlərinin belə başlaya bilmədiyi belə layihələr məhz son 20 ildə daha da kütləvi olaraq yayılmaqla Türkiyənin nüfuzunu planetar səviyyəyə qaldırmışdır. Bu gün dünya düzəninin yenidən formalaşdığı gərgin siyasi münasibətlər və Rusiya-Ukrayna müharibəsi fonunda Qara dəniz taxıl dəhlizinin baş zəmanətçisi olan Türkiyə məhz onun siyasi liderinin qətiyyəti sayəsində dünyada ərzaq böhranın yaşanmaması üçün də mücadilə aparır. Müharibənin ədalətlə başa çatacağının artıq işğalçı Rusiya daxil, hamının yaxşı başa düşüldüyü bu dövrdə taxıl dəhlizi kimi enerji dəhlizinin də açıq qalması, eləcə də Türkiyənin münaqişə tərəfləri olan iki slavyan xalq arasında ən yaxın vasitəçi olması, bunu bacara bilməyən iri dövlətlər tərəfindən qısqanclıqla qarşılanmaqdadır. Bu, qardaş ölkənin siyasi liderinin həmişə haqq tərəfində olmaqla özünün zəngin siyasi təcrübəsindən, dünya liderlərinə nüfuzedici təsir gücündən məharətlə istifadəsindən irəli gəlir. Bütün bunlar da, öz növbəsində, ölkəsində yeni yüz ilin qurucusu olmaq missiyasının nəyə görə yenidən Rəcəb Tayyib Ərdoğana nəsib olduğunu açıqca ifadə edir.

Türkiyə Cümhuriyyəti Türk dünyasının lokomotivi, türkdilli dövlətlərin mənəvi lideridir. Bu missiya zaman-zaman Rusiya, SSRİ və Çin maneəsinə ilişib qalsa da, Türkiyə sevdası Uyğurustandan Bosniyaya, Sibirdən Kərkükə, Təbrizdən Dərbəndə qədər hər yerdə özünü yaşadıb, insanların dilindən türkcə nəğmələr heç zaman düşməyib. Qardaşlıq bağlarının tikanlı məftillər arxasından daha sıx bağlandığı ötən 200 il türkdilli dövlətləri ortaq iqtisadi inkişafdan geri salsa da, mədəni və humanitar əlaqələr heç zaman səngiməmiş, əksinə, daha da arzu edilən, daha da ülvi olmuşdur. Bu gün SSRİ-nin yox olduğu, Rusiyanın isə hər keçən gün nüfuzunun daha da zəiflədiyi bir zamanda yola hazırlaşan Türk birliyi karvanını arxasınca apara biləcək siyasi güc məhz yenə də qardaş Türkiyənin üzərinə düşmüşdür. Türkdilli ölkələrin ən böyük iqtisadi gücü, NATO-nun ikinci böyük hərbi qüvvəsi və tək müsəlman üzvü, mədəniyyətlərarası dialoq və layiq demokratik dəyərlər qurucuğunda önəmli bir ölkə olan Türkiyə Avropa və Şərq ölkələri arasında əsl etibarlı körpü rolunu da oynamaqdadır. Regional münaqişələrdən və yoxsulluqdan qaçıb mühacir həyatı keçirənlərə də qucaq açan türk xalqı özünün tolerantlığı və qonaqpərvərliyi ilə soyuqqanlı Qərbə həmişə insanlıq dərsi keçmişdir.

Bugünkü Türkiyə İslami dəyərlərə sadiq, mədəni ölkədir. Məhz İslam Mədəniyyəti prinsipləri əsasında bütün müsəlmanların bacı-qardaş olduğunu, dünyanın istənilən yerində torpaqları işğal edilmiş, haqqı tapdalanan müsəlmanların yanında olan Türkiyə dövləti bunu sözdə deyil, əməldə də göstərən güclü müsəlman dövlətidir. Praktiki olaraq dünyanın hər bir dövləti ilə qurduğu diplomatik əlaqələri sayəsində bu işi bacara bilən Türkiyə öz dövləti ərazisində də əcnəbi diplomatlara, onların ailə üzvlərinə olan hörməti ilə seçilir. İstanbulun fəthindən sonra onu bir dünya şəhəri halına gətirmiş Türkiyə qədim mədəniyyətlərin və müasir sivilizasiyaların bir arada yaşaya bildiyi bir məkana, dünyanın texnologiya mərkəzinə, nəqliyyat, kommunikasiya qovşağına, turizm, mədəniyyət və idman mərkəzinə çevrilmiş, bütün vilayətlər iqtisadi inkişafa qovuşmuşdur. Dilindən, irqindən və məzhəbindən asılı olmayaraq, hər yeni günə “Allahu Əkbər” nidası ilə başlayan türk insanı öz həyatını savab işlər niyazı ilə bitirmək əzmi ilə insanı məhz insan olduğu üçün sevdiyini bütün dünyaya göstərir. Bu mənada, imperializmin miras qoyduğu terror təhlükəsi ilə uğurla mücadilə edən Türkiyə bunu heç zaman bir fobiya səviyyəsindək şişirtməyən tək ölkə kimi də tanınmaqdadır. Türkiyə liderinin də dediyi kimi terrorun dini, milləti və məkanı yoxdur!

Müasir Türkiyə tablosunda, onun siyasi liderinin profilində Azərbaycanın öz rəngləri vardır. Şanlı Azərbaycan bayrağının hər üç rəngini öz doğma övladı kimi mənimsəmiş Türkiyənin istər tarixin keçmiş dövrlərində, istərsə də ölkəmizin dövlət müstəqilliyi dövründə xalqımızın haqq səsinə səs verməsi Ulu Öndər Heydər Əliyevin təbirincə ***“Bir millət iki dövlət”*** ən yüksək səviyyəyə qalxmışdır. Azərbaycanın məruz qaldığı rus və erməni işğallarında həmişə yanında olmuş Türkiyə bu savaşlarda verdiyi şəhidlər və göstərdiyi siyasi mənəvi dəstəklə əsl qardaşlıq nümunəsi göstərmişdir. Çanaqqala döyüşlərində şəhid olan minlərlə Azərbaycan əsgərinin xatirəsini əbədi yaşadan türk milləti Qafqaz İslam Ordusunun xilaskarlıq missiyası ilə də xalqımızın tarixində dərin qardaşlıq izləri qoymuşdur. SSRİ-nin dağılması ilə fürsət tapan erməni terrorizmi və separatizminə hədəf olan Azərbaycanı birmənalı olaraq dəstəkləyən Türkiyə Böyük Qarabağ Zəfərinin də qazanılmasında dövlətimizə ən böyük siyasi və mənəvi dəstəyini açıqca bəyan etdi. Bu qardaşlıq, bu doğmalıq daha sonra iki dövlət arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi ilə təsdiqlənib, Qəhrəmanmaraş zəlzələsinin dərdlərinə məlhəm olmasında möhkəmlənib, bir-birinə “əziz qardaşım” deyə müraciət edən iki dövlət başçısına ünvanlanmış gurultulu alqışlarla yaddaşlarda əbədi qaldı. Beləcə, tarixin bütün sınaqlarından üzüağ çıxan Türkiyə-Azərbaycan qardaşlığı yeni minilliyə daha əmin addımlarla irəliləyir.

Allah TÜRKÜ qorusun!

**✍ Əli CABBAROV**

# Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi region üçün hansı perspektivləri vəd edir

*Bir neçə gün bundan əvvəl keçirilən “Naxçıvanda yeni biznes üfüqləri: sahibkarlıq potensialı və inkişaf perspektivləri” adlı konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli maraqlı bir məsələyə toxundu. Səlahiyyətli nümayəndə çıxışı zamanı bildirdi ki,* ***“Naxçıvan artıq azad iqtisadi zonaya çevrilir, sahibkarlar və investorlar üçün yeni üfüqlər açılır”.***

Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi son dövrlərdə bir neçə dəfə müxtəlif səviyyələrdə səsləndirilib. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda isə bununla bağlı konkret vəzifələr müəyyənləşdirilmişdir. Belə ki, proqramın 4.1.1-ci bəndində qeyd olunur ki, azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir. Zəngəzur dəhlizinin açılması ilə bağlı ciddi müzakirələrin getdiyi bir dövrdə muxtar respublikanın azad ticarət zonasına çevrilməsi haqqında mühüm vəzifələrin ortaya qoyulması bu sahədə ciddi layihələrin həyata keçirilməsindən xəbər verir. Maraqlıdır, coğrafi baxımdan Azərbaycanın əsas ərazilərindən ayrı salınmış Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi region üçün hansı perspektivləri vəd edir?



Bunun üçün ilk olaraq “azad iqtisadi zona” anlayışına aydınlıq gətirməyə ehtiyac var. Bu cür ərazilərin yaradılmasında əsas məqsəd, əvvəlcədən müəyyən olunmuş hansısa bir bölgəyə sahibkarların marağını cəlb etmək, həmin ərazinin investisiya cəlbediciliyini artırmaq, bununla da iqtisadi münasibətlərdə həmin zonanın fəallığını təşviq etməkdir. Təbii ki, bütün bu proseslərin nəticəsində əhali məşğulluğunun təmin edilməsi, ixrac-idxal aktivliyinin artırılması, sahibkarlığın inkişafında bürokratik əngəllərin aradan qaldırılması əsas hədəflərdən sayılır. Qeyd edək ki, bu iqtisadi mexanizm tarixdə ilk dəfə yunanlar tərəfindən tətbiq olunsa da, ötən əsrin ikinci yarısından ABŞ, Koreya, Çin və digər ölkələrdə daha geniş yayılmağa başlanılıb. Müasir dövrdə isə vəziyyət belədir: Dünya Bankının 2022-ci ildə yaydığı məlumata görə, dünyada 4000-dən çox azad iqtisadi zona mövcuddur ki, onların da qlobal ixracatda çəkisi 200 milyard dollardan artıqdır.

Vurğulamaq lazımdır ki, azad iqtisadi zonalar üçün ərazilərin seçilməsi müəyyən şərtlər üzərində formalaşır. Bu şərtlər içərisində ən başlıcası isə xüsusi zonanın qonşu ölkələrə yaxınlığı və xarici bazarlara rahat çıxış imkanları, ərazinin lazımi infrastruktur layihələrinə sahib olması, eyni zamanda zonaların şaxələndirilmiş nəqliyyat (gəmi, qatar və avtomobil marşrutları) xətlərinə əlçatanlığıdır. Hazırda Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat marşrutları üzərində mərkəzi qovşağa çevrilməsi bu cür zonaların yaradılması zərurətini bir daha ortaya qoyur. Xüsusilə Şərq-Qərb dəhlizi üzərində son illərin ən böyük layihələrindən olan Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəmizin mühüm logistik-tranzit imkanlarını təqdim edir. Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər isə Naxçıvan Muxtar Respublikasının tranzit imkanlarının önünü açır. Muxtar respublika ətrazisində azad ticarət zonasının yaradılması bu baxımdan bir sıra yeni perspektiv imkanları ortaya çıxarır. Nəzərə alaq ki, ötən əsrin əvvəllərindən başlayaraq, xüsusilə sovetlər birliyi dövründə Bakı-Naxçıvan-İrəvan dəmiryol xətti hər il milyonlarla ton yükün daşındığı mühüm nəqliyyat xətlərindən biri olub. Eyni zamanda adıçəkilən dəmiryol xətti İran İslam Respublikasına da Culfa vasitəsilə (Moskva-Tehran) sərnişin və yükdaşımaların yerinə yetirib. Hazırki dövrdə isə bu dəmiryol xəttinin Qars-İqdır dəmir yolu xəttinə birləşdirilməsi işləri həyata keçirilir. Ortaya çıxan nəticə budur ki, bu layihələr (paralel olaraq həm də avtomobil yolu) tamamlandıqdan sonra Naxçıvan ərazisi mühüm nəqliyyat qovşağına çevriləcək. Bu cür aktiv nəqliyyat qovşağında azad ticarət zonasının yaradılması isə olduqca mühümdür. Həmçinin belə xüsusi zonanın yaradılması muxtar respublika üçün bir sıra əhəmiyyətli perspektivlər vəd edir. Bunlar hansılardır?

Birincisi, azad iqtisadi zonalar beynəlxalq nəqliyyat marşrutlarına yaxın yerdə yaradılır. Naxçıvanda isə dəmiryol və avtomobil yollarının Böyük İpək Yolu üzərində yerləşməsi, əlavə olaraq, muxtar respublikada beynəlxalq statusa malik hava limanının mövcudluğu yaradılacaq xüsusi zonanın inkişafına mühüm təsir göstərəcək, nəticədə, ixrac-idxal əməliyyatlarında nəqliyyat şaxələndirilməsi təmin ediləcək.

İkincisi, belə zonalarda istənilən iqtisadi fəaliyyət növü üçün gömrük-vergi rüsumları tətbiq olunmadığından sahibkarlığın inkişafı üçün münbit şərait yaranacaq.

Üçüncüsü budur ki, yeni yaradılacaq iqtisadi zona təkcə logistika baxımından deyil, həm də yerləşdiyi bölgənin özünün mühüm sənaye və kənd təsərrüfatı potensialına malik olması ilə də əhəmiyyətlidir. Bu isə yerli sahibkarlara yanaşı, xarici investorların da regiona marağını artıracaq.

Bunu da nəzərə alaq ki, azad iqtisadi zonaların inkişafı, eyni zamanda maliyyə və sığorta xidmətlərinin, valyuta əməliyyatlarının, əqli mülkiyyətin, turizmin və digər sahələrin inkişafına böyük təsir göstərir. Bu isə gələcəkdə Naxçıvanı mühüm maliyyə və xidmət mərkəzlərinin, ticarət nümayəndəliklərinin cəmləşdiyi mərkəzə çevirə bilər.

Sonda bir məsələni də qeyd edək ki, müasir dövrdə azad iqtisadi zonalar yaradılarkən coğrafi mövqeyinə görə dünyadakı analoji zonaların təcrübəsi bir daha öyrənilir. Məsələn, Bakıda Beynəlxalq Dəniz Ticarəti Limanı (Ələt Azad İqtisadi Zonası) üçün ABŞ, Çin, Cənubi Koreya, Hindistan, Avstraliya təcrübəsi nəzərdən keçirilsə də, mütəxəssislər Dubay modelinin tətbiqini daha təkmil variant kimi qəbul edirlər. Düşünürük ki, Naxçıvan üçün də tətbiqi perspektivli hesab olunacaq bir modelin tapılmasına ehtiyac var. Hər halda bütün bunlar yaxın gələcəkdə mühüm müzakirə mövzusuna çevriləcək məsələlər olacaq.

**✍ Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Heydər Əliyev Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışını Türkiyənin Cümhuriyyət Gününə salmışdı

...Onu Naxçıvanda 90-cı illərin ağır günlərini yaşamış bir çoxları tanıyır. Ümummilli Lider Heydər Əliyevə və Naxçıvana olan böyük sevgisi bu tanışlığın ilk bağları idi. 1990-1993-cü illərdə Naxçıvana saysız-hesabsız səfərləri, Ulu Öndərlə dəfələrlə görüşləri, hətta Sədərək döyüşlərində iştirakı onun həyat hekayəsinin səhifələrinə unudulmaz illər kimi yazılıb.

***– Cabbar bəy, həmin dövrdə Naxçıvanda davamlı olaraq qalırdınız, yoxsa gedib-gəlirdiniz?***

– Bəzən olurdu, həftələrlə qalırdım, bəzən də gəlib iki-üç gün qalıb qayıdırdım. Yəni mənim Naxçıvanda qalmağım oradakı hadisələrin axarına bağlı idi. Vaxt olub ki, yeni gəlib çatmışam İqdıra, Naxçıvandan telefon zəngi gəlib ki, Ali Məclisin Sədri səni soruşur. Dərhal yenidən Naxçıvana geri dönmüşəm. Naxçıvanda davamlı olaraq Dövlət Müdafiə Komitəsinin sədri Elman Abbasovla əlaqədə olurdum, cəbhədəki vəziyyətlə bağlı məlumatları ondan alırdım. Çox zaman Ulu Öndərin hər hansı bir xəbərlə bağlı tapşırıqlarını da o mənə çatdırırdı. Beləliklə, Naxçıvandakı ümumi vəziyyət, dahi şəxsiyyət Heydər Əliyevin görüşləri ilə bağlı xəbərlər həm "Şərq qapısı" qəzetində, həm də bizim qəzetlərdə ("Milliyət", "Yeşil İqdır" – S.H.) yayımlanırdı. O vaxt Heydər Əliyevlə görüşə çoxlu insanlar gəlirdi, onlar içərisində xarici ölkələrdən olan jurnalistlər də var idi. O dövrdə, həqiqətən, Naxçıvanda yeni bir tarix yazılırdı.

***– Həm də Naxçıvanda əsl informasiya blokadası hökm sürürdü. Buna görə də düşünürəm ki, hazırladığınız xəbərlər bu blokadanı daha çox yarırdı.***

– Tamamilə doğrudur. O zaman muxtar respublikada baş verən hadisələr, sadəcə, Naxçıvanın öz televiziya və radiosu, bir də sizin "Şərq qapısı" qəzetində yayımlanırdı. Bunların yayım dairəsi isə çox məhdud idi, hətta Bakıya belə gedib çatmırdı. Bu baxımdan "Milliyət" qəzetinin imkanları daha çox idi. Çünki bu qəzeti Türkiyədə yüz minlərlə insan oxuyurdu, eyni zamanda burada dərc olunan yazıları xarici media




da yayırdı. Beləliklə, dünya Naxçıvanla bağlı hadisələrdən "Milliyət" vasitəsilə xəbər tuturdu.

***– Yəqin ki, "Milliyət" buna görə sizi Naxçıvan üzrə müxbir təyin etmişdi.***

– (Gülümsəyir)... Bəli, çünki müxbir vəsiqəmin də üzərində "Milliyət"in İqdır-Naxçıvan üzrə müxbiri" yazılmışdı...

***– Bəs Naxçıvana gələndə harada qalırdınız?***

– Naxçıvanda olanda Nisə nənə deyə çağırdığımız bir qadın vardı, onun evində qalırdım, evləri də şəhərin mərkəzindəki binaların birində idi. Oğlu ilə Naxçıvana ilk gəldiyim gün meydanda tanış olmuşdum. Qalacaq bir yerimin olub-olmadığını soruşmuşdu, yox deyincə də məni israrla evinə dəvət etmişdi. Nisə nənənin evi mənim üçün doğma bir ocaq idi.

***– Ulu Öndərimizin həmin vaxt Naxçıvanda gördüyü daha hansı işləri xatırlayırsınız?***

– Görkəmli dövlət xadimi Heydər Əliyevin o vaxt Naxçıvanda gördüyü işləri sadalamaqla bitməz. Hamınız bilirsiniz ki, bu dahi şəxsiyyət bütün sahələrin dərin bilicisi idi. Məsələn, həmin dövrdə O, təkcə Naxçıvanın müdafiəsi, ordu quruculuğu kimi məsələlərlə maraqlanmırdı, eyni zamanda Naxçıvanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün böyük işlər görürdü. Bilirsiniz, sovetlər birliyi dağıldıqdan sonra Naxçıvana məxsus bütün sənaye müəssisələrində istehsal dayanmışdı. İşçilər aylardır, maaş ala bilmirdilər. Bakı ilə əlaqələr, demək olar ki, kəsilmək üzrə idi. Ərzaq, elektrik, yanacaqla bağlı böyük çətinliklər yaşanırdı. Belə bir çətin vəziyyətdə dahi şəxsiyyət Heydər Əliyev Türkiyə ilə əlaqələri yenidən bərpa etdi. Türkiyə banklarından Naxçıvana maliyyə vəsaiti ayrıldı, ərzaq yardımları edildi, Naxçıvandan Türkiyə universitetlərinə oxumaq üçün tələbələr göndərildi. Bunu da vurğulamaq istəyirəm ki, iki ölkə arasında iqtisadi əlaqələr təkcə Türkiyənin yardımları ilə məhdudlaşmırdı. Ulu Öndər Heydər Əliyev Türkiyə ilə iqtisadi əlaqələrin təməlini ilk dəfə sərhəd ticarəti üzərində qurmuşdu. Bunun üçün Naxçıvandan müxtəlif malların Türkiyəyə ixracı üçün tapşırıq da vermişdi. Xatirimdədir, ilk dəfə iş adamı Firudin Ayrım Naxçıvandan İqdıra 110 yük maşınında 500 ton pambıq, 250 ton alüminium, 500 ton mis, 250 ton inşaat üçün dəmir idxalı etmişdi. Mən bu haqda "Milliyət"də, eyni zamanda "Yeşil İqdır"da "Nahçıvandan ilk parti sınır ticareti" adlı manşet xəbəri də yayımlamışdım. Yəni o dövrdə dahi siyasətçi Heydər Əliyev Naxçıvan üçün böyük işlər görürdü.

***– Bu gün "Bir millət, iki dövlət" prizmasından baxdıqda o dövrdə daha hansı işlərin görüldüyünü qeyd etmək istərdiniz?***

– Təbii ki, bütövlükdə, türk xalqının böyük oğlu Heydər Əliyevin Naxçıvanda atdığı hər bir addım "Bir millət, iki dövlət"in, sadəcə, sözlə ifadə edilməməsinin təməlini qoyurdu. Bu yaxınlarda yazılarımın birində qeyd etmişdim, indi bunu yenə təkrar etmək istəyirəm. Bilirsiniz ki, dahi lider Naxçıvanda olanda onun rəhbərliyi ilə Naxçıvan parlamenti Azərbaycanın milli bayrağını dövlət bayrağı kimi qəbul etdi, muxtar respub-



likanın adını dəyişdi, milli idarəçilik sistemini yaratdı. Xatirimdədir, Ulu Öndərin Naxçıvanda gördüyü ilk işlərdən biri də Naxçıvandakı Kirov küçəsinin adını dəyişdirib Atatürk küçəsi adlandırması idi. Prezident cənab İlham Əliyev də bu yaxınlarda Şuşaya səfərində şəhərin mərkəzi küçələrindən birinə Mustafa Kamal Atatürkün adını verdi. Hətta sosial şəbəkədə bununla bağlı bir fotoqraf da paylaşdı. Bütün bunlar o deməkdir ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasət davam etdirilir. Azərbaycanın Qarabağ Zəfərindən sonra Türkiyə ilə əlaqələri daha da yüksək səviyyəyə qalxdı. İndi isə hər iki dövlət başçısının bir-birinə olan əsl qardaşlıq münasibəti dövlətlərarası münasibətlərə də böyük təsir göstərir. İnanıram ki, bu münasibətlər hər zaman belə olacaq, başqa cür ola da bilməzdi. Çünki söhbət keçmişi, bu günü və gələcəyi eyni olan millətdən gedir.

***– Son sualımı vermək istəyirəm: Ulu Öndərlə son görüşünüz nə zaman olub?***

– Heydər Əliyevlə son görüşümüz 1996-cı ildə, artıq o Azərbaycanın Prezidenti idi, o zaman olub. Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışında. Sizə bir şey deyim: Heydər Əliyev, həqiqətən, Türk dünyasının dahi şəxsiyyəti olub. O, Hüseyn Cavidin məqbərəsinin açılış mərasimini Türkiyə Cümhuriyyətinin 73-cü ildönümü gününə salmışdı və bu, təsadüfi deyildi. Həmin vaxt bizim Türkiyədən də qonaqlar, o cümlədən İqdırın valisi iştirak edirdi. Mən də həmin heyətin tərkibində idim. Və son görüşümüz də elə onda oldu. Yeri gəlmişkən, Ümummilli Lider Heydər Əliyev iki dəfə də İqdırda səfərdə olub və Onu müşayiət etmişəm.

***– Amma, deyəsən, Ulu Öndərlə bir yerdə fotoşəkliniz o qədər də çox deyil...***

– Doğrudur, cəmi bir və ya iki fotoşəkildə varam. Çünki o vaxt həm müxbir, həm də fotoqraf idim. Yəni daha çox mən çəkirdim, məni çəkən yox idi...(gülümsəyir) Amma arxivdə qalırsa, Naxçıvan televiziyasının o zaman çəkdiyi videokadrların bir neçəsində mən də varam.

***– Cabbar bəy, maraqlı müsahibəyə görə sağ olun, sizə təşəkkürlərimi bildirirəm.***

– Mən də sizə təşəkkür edirəm. Bunu da əlavə etmək istəyirəm ki, bir müddət əvvəl Ümummilli Liderimizlə bağlı xatirələrimi kitab şəklində hazırlamağa qərar vermişdim. Hətta bununla bağlı yazının da böyük bir hissəsini tamamlamışdım, amma gözlənilmədən kompüterimin "çökməsi" məni çox təəssüfləndirdi. İnanıram ki, özümü toplayıb yenidən bu arzumu reallaşdıra biləcəyəm. Bir daha sağ olun ki, dahi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə məni yada salıbsınız.

***– Siz də sağ olun.***

**✍ Səbuhi HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*
*Naxçıvan-İqdır-Naxçıvan*

## Tanınmış alimin 70 illik yubileyi münasibətilə tədbir keçirilib



Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı və dəstəyi ilə Naxçıvan Dövlət Universitetində keçirilən "50 illik ömrün fizika elminə verdiyi töhfə" adlı tədbirdə əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Zöhrab Vəliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Zöhrab Vəliyevin elmi-pedaqoji fəaliyyətinin mühüm hissəsi Naxçıvan Dövlət Universiteti ilə bağlı olub. Fizika elminin inkişafında xüsusi xidmətləri olan Zöhrab müəllimin əməyi hər zaman dövlətimiz tərəfindən qiymətləndirilib. Rektor bildirib ki, ali təhsil ocağının Fizika-riyaziyyat fakültəsində onun adını daşıyan laboratoriya fəaliyyət göstərir, alimin yetirmələri bu gün Naxçıvan Dövlət Universitetində uğurlu elmi-pedaqoji fəaliyyətlə məşğuldurlar.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının hazırladığı videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov AMEA-nın müxbir üzvü Zöhrab Vəliyevin elmi fəaliyyətindən söhbət açaraq alimin elmi jurnallarda çap olunan məqalələrindən danışıb. Zöhrab müəllimin yazdığı məqalələrin, xüsusilə müasir dövrlə səsləşdiyini vurğulayan akademik qeyd edib ki, Zöhrab Vəliyev nəzəriyyə ilə təcrübəni vəhdətdə aparan alim idi.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tanınmış alimin yüksək elmi potensiala malik olduğunu çəkdiyi nümunələrlə əsaslandırıb. Çıxışda AMEA-nın müxbir üzvü Zöhrab Vəliyevin öz işinə olan sonsuz məsuliyyətini qeyd edərək, həmçinin ideal ailə başçısı, səmimi və mehriban bir insan olduğunu bildirib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxışında o dövrdə Zöhrab Vəliyevin Moskva Dövlət Universitetində təhsil alması, Fizika İnstitutunda işləməyə başlamasını yüksək qiymətləndirib, alimin gənc yaşlarında qazandığı uğurları xüsusilə qeyd edib. Akademik vurğulayıb ki, böyük alimlər zamanı, elmi qabaqlayırlar, Zöhrab müəllim də məhz belə ziyalılarımızdan olub.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, "Naxçıvan" Universitetinin rektoru Anar Kazımov tanınmış alimin tələbələri olaraq çıxış ediblər, xoş xatirələrini bölüşüblər. Çıxışlarda bildirilib ki, humanist, ədalətli müəllim, əsl ziyalı alim obrazının təcəssümü kimi qiymətləndirilən Zöhrab müəllimin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

Ümumi və nəzəri fizika kafedrasının dosenti, AMEA-nın müxbir üzvü Zöhrab Vəliyevin dissertantı olmuş Nailə Qardaşbəyova elmi rəhbərinin həyat və fəaliyyəti haqqında məlumat verib. Tanınmış alimin əsas elmi tədqiqatlarından bəhs edən məruzəçi qeyd edib ki, o, 24-ü xaricdə nəşr olmaqla, 93 elmi əsərin müəllifidir. Onun rəhbərliyi altında 1 dissertasiya müdafiə edilmişdir. Web of Science, Scopus və sair beynəlxalq bazalarda indeksləşən jurnallarda dərc olunan 17 əsəri vardır. AMEA-nın müxbir üzvü Zöhrab Vəliyev 2003-cü ildə vəfat etmişdir.

Sonda alimin ailə üzvləri adından qardaşı çıxış edərək yubiley tədbirinin keçirilməsində dəstəyi olan hər kəsə minnətdarlığını bildirib.

*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi*

## "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılmasından 10 il ötür



"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə muzeyin direktoru Rəhim Rəhimov açıb. Bildirib ki, Naxçıvanqala tarixən təkcə müdafiə məqsədi daşımayıb, eyni zamanda bu tarixi ərazidə formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib. Naxçıvana gələn səyyahların verdikləri məlumata görə, Naxçıvanqala XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olub. 2010-cu ildən tarixi abidənin bərpasına başlanılıb. 7 aprel 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olub.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi-mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülüb. Bu gün Prezident cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası, qorunması, tədqiqi və təbliği sahəsində mühüm işlər həyata keçirilir. Son illər dünya əhəmiyyətli daşınmaz tarix-mədəniyyət abidələrinin bir neçəsi YUNESKO-nun siyahılarına salınıb.

Sonra "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədovanın "Abidələr bizim milli sərvətimizdir", "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin baş fond mühafizi-elmi işçisi Murad Nəcəfzadənin "Muzeylər milli sərvətimizdir" mövzularında çıxışları dinlənilib.

Sonda tədbir iştirakçıları kompleksin ekspozisiyası ilə tanış olublar.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti*

## Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin saytı "GOV.AZ" zonasına köçürülüb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin elektron informasiya resursu yeni *"nmys.gov.az"* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.

Yenilənmiş internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Saytın SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

# Bura Naxçıvandır…

*İnsanlar Tanrı tərəfindən onlara biçilmiş ömür payında birlikdə yaşayır, məkanlar çərçivəsində ümumi mədəni dəyərlər formalaşdırırlar. İnsanın yaşadığı yerlə bu güclü bağı qırmaq, demək olar ki, mümkünsüzdür. İlk dəfə dünyaya göz açdığımız ev, küçə, şəhər və böyüyüb boya-başa çatdığımız yerdə yaşamasaq belə onlar həmişə təsəvvürümüzdə qalıcı izlər qoyur. Evimizdən başlayaraq şəxsiyyətimizin, xarakterimizin formalaşmasında aldığımız tərbiyə və təhsil qədər udduğumuz hava və üstündə gəzdiyimiz torpağın da dəyəri əvəzsizdir.*

Dünya sivilizasiyanın qaynağı olan, Nuhun qədəm basdığı, hər küçəsi, hər tini tarix qoxan, əsrlərboyunca keçilməz qala rolunu oynayan, təbii və memarlıq üslubu ilə gözoxşayan, bir çox fərqli mədəniyyətləri və ünsürləri birləşdirən, Möminə xatına “qucaq”, Yusif Küseyr oğluna “əbədi beşik”, Nəimiyə “hüruf”, Mirzə Cəlilə “məktəb”, Ordubadiyə “qələm”, Cavidə “ev” olan qədim türk diyarı Naxçıvandan yazıram…

Naxçıvan! Qürbətdə olarkən həsrəti ilə qovrulduğumuz, sadəcə, yaşanılan məkan olmadığını, yeri gəldiyi zaman bir dost, bir sevgili və bir can yoldaşı olduğunu hiss etdiyimiz, hər şeyin insanla gözəlləşəcəyini düşünüb insanları ilə sevilən şəhərdir. Naxçıvana ayna tutub, onun gözəlliklərini gələcək nəsillərin yaddaşına, qəlbinə və ruhuna əbədi köçürmək hər bir qələm əhlinin borcudur. Naxçıvana bağlılığımız, heyranlığımız və sevgimiz artdıqca, ondan ayrı düşmək günbəgün çətinləşərək dözülməz olur. Sanki rəssam bahar fırçasını göy qurşağına vurub, bu torpağın hər dağına, hər daşına sarı bülbüllər, qırmızı güllər çəkərək lalənin yanağına şəbnəm qondurub. Bu şəhərdə arılar ləçək üstə bal şehinə bənzəyir. Meyvəsindən hələ şərab olmamış, tut sərxoşdur, bağ sərxoşdur bu eldə. Hələ yazın gəlməyinə az qalmış, talavar üstə tağ sərxoşdur bu eldə. Bulaqları zümzüməli, bülbülləri həzin səsli, seli, suyu çağlamalı, sərin külək, dağ havası, ürəyindən keçsə əgər, Naxçıvana eylə səfər. Bura türkün diyarıdır. Elə bu adı da türklərə Tanrının özü verərək, onları dünyanın ən yüksək yerlərində, havası ən təmiz torpaqlarda yerləşdirməsi və “öz ordum” deməsi bu xalqın ululuğunun rəmzidir. Bununla bərabər bu xalq gözəllik, zəriflik, ədəb, hörmət, ehtiram, sözündə bütövlük, təvazökarlıq, igidlik, mərdlik kimi saysız-hesabsız tərifə layiq olan ərdəmlərə sahibdir.



Bizim istək və arzumuzdan asılı olmayaraq, bir çox peyğəmbərlərin indiki Naxçıvan adlanan yurdun ilk insan məskəni olduğunu deyən Amerika Birləşmiş Ştatlarındakı Norvest Universitetinin professoru Marti Martincito Fillips “Allah yurdu Naxçıvan” məqaləsində qeyd edirdi ki, Böyük İpək Yolunun məhz Naxçıvandan keçməsi, Ordubadda ipəkçilik ənənəsinin formalaşması tarixin yaddaş salnaməsinə çevrilmiş, heç kimin və heç nəyin real tarixi gerçəkliyi inkar edə bilməyəcəyi bir məntiqi həqiqəti üzə çıxarmışdır.

Yer kürəsinin bu balaca cənnət məkanını özünə və əhalisinə məskən seçən Nuh Peyğəmbər bu seçimin Allah əmri olduğunu bildirmişdir. Bu torpağın hər qarışı, hər daşı Nuh əlamətlərini bu gün də qoruyub saxlayır. Çünki bu gerçəklik Naxçıvanın dağlarında və buranın bugünkü sakinlərinin qədim tarixində, gündəlik həyat tərzində yaşanmış və bu gün də yaşanır.

Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer Naxçıvandır. Başqa cür olsa idi, Nuh Peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda vurmazdı.

Hər baharda Naxçıvan daha da yeniləşir, həyat simfoniyasının çalarlığı olan Haçadağla həzin yuxuya gedərək Gəmiqaya ilə şaxə qalxır, Nəhəcirlə dəyirman daşında emal olunub əbədiyyətə təhvil verilir. Naxçıvan dağları Allah tərəfindən çəkilən təbiət mənzərəsidir. Uzaqdan baxanda bu dağlar sanki istehkamı xatırladır, lakin yaxınlaşdıqca hiss edirik ki, bu mənzərə insana təcrid olunmuş bir məkanın varlığından xəbər verir.

Tarixin müəyyən qaranlıq dövründə ideya, məntiq və fəlsəfi baxımdan insanlar ilk doğulan övladlarını qurban kəsirdi. Bu inanca əsaslanan bir hal kimi qəbul edilmiş və göydən yerə bərəkət, sağlamlıq nazil olacağına əsaslanmışdır. Müəyyən dövrdən sonra İbrahim Peyğəmbərin qurbanlığının qoç qurbanlığı ilə əvəz olunması başladı. “Qurani-Kərim”də bəhs edilən, Naxçıvan mədəniyyətinə, Naxçıvan torpağına aid olan Əshabi-kəhf dini abidəsində kəsilən qurbanlar Tanrıya sevgi və yaşadıqları torpağa əbədi məhəbbət və müqəddəslik rəmzi kimi başa düşülür. Naxçıvanlıların hər il Qurban bayramını dini inanclar çərçivəsində yüksək səviyyədə keçirməsi onu göstərir ki, bu yurdda yaşayan insanların fəaliyyəti birbaşa haqq-ədalət və müqəddəslik, paklıq üzərində köklənmişdir. Buna görə də Naxçıvan tarixi dünya tarixinin müqəddəslik və paklıq rəmzidir ki, Naxçıvanı Allah qoruyur. Ta qədim zamanlardan Naxçıvanda kütləvi dağıdıcı hadisələrin olmaması da buna əyani sübutdur.

XVII əsrdə yaşamış Məhəmməd Mufid Mustafi təkcə Ordubad şəhərində gur və təmiz suyu olan 70-dən artıq çeşmənin olduğundan xəbər vermişdir. Həmin kəhrizlərdən axan sular aydınlıqdır, safdır, müqəddəsdir. Bunun nəticəsidir ki bu diyar həm də insanlarda dözüm, cəsarət, hünər, rəşadət, qorxmazlıq kimi keyfiyyətlər yaratmaqla onlarda Vətənə, torpağa bağlılıq hissləri aşılayaraq vətəndaşlıq ləyaqəti formalaşdırır. Vətəndaşlıq ləyaqəti isə doğma yurda, ana Vətənə məhəbbətdir.

Bu torpaq Naxçıvan memarlıq məktəbinin banisi, Möminə xatın kimi ölməz əsərin müəllifi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin, Orta Asiyada adıyla məşhurlaşaraq Anadoluda Mövlanaya həkimlik edən Əkmələddin Naxçıvaninin, görkəmli filosof Baba Nemətullah Naxçıvaninin, məşhur xəttat Mahmud Bağır Ordubadinin, şeir ustadı Ziyai Ordubadinin, Sultan IV Muradın saray musiqiçisi Əcəm Murad Ağanın, dünya şöhrətli alim Mirzə İbrahim Ordubadinin, məşhur şair Fikri Ordubadinin, Naxçıvanda ilk qadın məktəbi açan Məmməd Tağı Sidqinin, “Molla Nəsrəddin”in yaradıcısı məşhur yazıçı və publisist Cəlil Məmmədquluzadənin, “Mənim Tanrım gözəllikdir, sevgidir”, – deyən dahi dramaturq və filosof Hüseyn Cavidin, tanınmış şair Əliqulu Qəmküsarın, tənqidçi alim Əziz Şərifin, ömrünün baharında həyata gözlərini əbədi yuman realist rəssam Bəhruz Kəngərlinin, uşağından böyüyünə hamının həvəslə oxuduğu “Qara Volqa” əsərinin müəllifi Cəmşid Əmirovun, istedadlı aktyor və rejissorlardan İbrahim Həmzəyevin, Rza Təhmasibin, Zəroş Həmzəyevanın, heykəltəraş Akif Əsgərovun və adlarını çəkmədiyim bir çox görkəmli şəxsiyyətlərin Vətənidir.

Və nəhayət, müstəqil Azərbaycan Respublikasının memarı, qurucusu, öndəri, görkəmli dövlət xadimi, dünya miqyasında tanınmış siyasətçi Ümummilli Lider Heydər Əliyev kimi bir dahinin böyüyüb bəhrələndiyi torpaq da məhz Naxçıvandır. Naxçıvanın iqtisadi və mədəni inkişafı dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Onun müdrik siyasəti nəticəsində muxtar respublika Azərbaycanın ən böyük aqrar-sənaye bazasına çevrilmiş, yeni istehsal sahələri yaradılmış, həmçinin təhsil və mədəni obyektlərin inşası geniş vüsət almışdır. Turizm, səhiyyə və təhsil sahəsində böyük nailiyyətlər əldə olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası Azərbaycanın inkişaf etmiş sənaye mərkəzinə çevrilmişdir. Bütün bunlar Heydər Əliyev siyasi irsinin layiqli varisi olan Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin, Azərbaycanın bu əbədi və əzəli dilbər guşəsinə tükənməz sevginin ifadəsidir. Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi: ***“Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunlar hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir”***.

**Fariz ƏHMƏDOV**

## Məktəblinin uğuru



Dövlət İmtahan Mərkəzi tərəfindən II və III ixtisas qrupları üzrə 20-21 may 2023-cü il tarixlərdə keçirilmiş qəbul imtahanlarının nəticələri elan olunub. Bu imtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 394.0 bal toplayan Şərur rayon Kürçülü kənd tam orta məktəbinin məzunu Mikayıl Cəfərli göstərib. O, imtahanın birinci mərhələsində 296.7 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticə (690.7 bal) də ona məxsusdur.

**Xəbərlər şöbəsi**

## Alternativ yem bitkilərinin müzakirəsi aparılıb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində muxtar respublika ərazisində əkini həyata keçirilən yem bitkiləri ilə müqayisədə daha çox məhsuldar alternativ yem bitkilərinin təqdimatı və müzakirəsi aparılıb.



Sözügedən bitkilər, xüsusilə quraqlığa davamlı və su tələbatı az, şoran və şorakət torpaqlarda əkilən bitkilərə aid olub.

Videoçarx təqdimatı əsasında yem sorqosu (Sorghum bicolor), şəkər sorqosu, mirvari darı (Afrikanskoye proso), erroziya otu (Vetiver Grass (Chrysooigon zizanioides), mompasa (Panicum Maximum) və sair bitkilərin becərilmə texnologiyası, yaşıl kütləsi də daxil olmaqla boyları, o cümlədən qida dəyərləri xüsusi diqqət çəkib.

Xarici ölkələrdən gətirilən bitki toxumlarına əyani olaraq mütəxəssislər tərəfindən baxış keçirilib.

Müzakirələr nəticəsində muxtar respublikada heyvandarlığın inkişafı, yem bazasının təşkili, o cümlədən torpaqların erroziyasının qarşısının alınması üçün bir sıra bitkilərin sınağının aparılması planlaşdırılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan könüllüləri təmizlik aksiyası keçiriblər

Ekologiya və “ASAN” xidmət könüllüləri Şahbuz rayonunda təmizlik aksiyası keçirib. Tədbirdə könüllülərə əlamətdar günlə bağlı məlumat verilib. Bildirilib ki, ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu var. Buna görə də gənc nəslin ekoloji mədəniyyət səviyyəsinin təkmilləşdirilməsi və ətraf mühitin birgə mühafizəsinə cəlb olunması diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür.



Daha sonra könüllülər çay kənarı ətrafında aksiya keçirib, ərazidə təmizlik işləri aparıblar.

Sonra isə könüllülər Batabat ərazisində yerləşən Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkını ziyarət edib, ətraflı məlumatlandırılıblar.

**Xəbərlər şöbəsi**

## Şahmat birinciliyi olub

Naxçıvan Şahmat Mərkəzində Vətən müharibəsi şəhidləri Məmmədov Sahil Rasim oğlu, Seyidov Nihat Mehman oğlu və Cəmiyev Aşur Bəybala oğlunun əziz xatirəsinə həsr olunmuş Naxçıvan şəhər tam orta məktəblərinin V-VIII sinif şagirdlərindən ibarət komandaları arasında şahmat birinciliyi keçirilmişdir.



Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra şəhid valideynləri İlhamə Seyidova, Bəybala Cəmiyev və Rasim Məmmədov çıxış edərək təşkilatçılara təşəkkürlərini bildirmiş, qəhrəmanlarımızın gənc nəslə tanıdılması istiqamətində görülən işlərin sevindirici olduğunu vurğulamışlar.

Sonra şəhid valideynlərinə yarışdan xatirə olaraq Fəxri fərman təqdim edilmişdir.

Çıxışlardan sonra birinciliyə start verilmişdir. Birincilikdə 10 tam orta məktəbin komandası, hər komandada isə 4 oğlan, 2 qız olmaqla, ümumilikdə, 60 şagird iştirak etmişdir. Qeyd edək ki, birincilikdə komandalar “Olimpiya” sistemi üzrə mübarizə aparmışlar. Yarışın yekun nəticəsinə əsasən 3 nömrəli tam orta məktəbin komandası I yerə, 12 nömrəli tam orta məktəbin komandası II yerə, 14 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülmüşdür. Sonda yer tutan komandalara və komanda üzvlərinə diplomlar təqdim olunmuşdur.

✍ **Ceyhun MƏMMƏDOV**

## Elan

***Yaradıcı və həvəskar şəxslərin nəzərinə!***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə “Heydər Əliyev və ailə dəyərləri” mövzusunda film və foto müsabiqəsi elan olunur.

Müsabiqə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən telejurnalist və rejissorlar, ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, həvəskar, professional fotoqraflar və digər şəxslər arasında keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər təqdim edəcəyi film və fotoları, şəxsiyyət vəsiqələrinin surəti və müvafiq anket ilə birlikdə 6 oktyabr 2023-cü il tarixədək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər.

Əlavə olaraq bildirilir ki, müsabiqədə bir müəllif 1 və ya son hədd 5 ədəd olmaqla film və foto ilə iştirak edə bilər.

Film (5-8 dəqiqə olmaq şərti ilə) CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda); foto (5 ədəddən artıq olmamaq şərti ilə) CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda), 20x30 sm və daha böyük ölçülü rəngli kağız formatda olmalıdır.

Müsabiqəyə təqdim edilən işlər yeni olmalı, heç bir tədbirdə iştirak etməməlidir.

Müsabiqəyə təqdim olunmuş işlər “Ən yaxşı film” və “Ən yaxşı foto” nominasiyası üzrə münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcək, müvafiq diplom və hədiyyə ilə mükafatlandırılacaqlar.

*Birinci yer (2 nəfər)*
*İkinci yer (2 nəfər)*
*Üçüncü yer (2 nəfər)*
*Həvəsləndirici yer (6 nəfər)*

Qeyd: Müsabiqəyə təqdim olunan materiallar geri qaytarılmır.

*Əlaqələndirici şəxs: Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin baş məsləhətçisi Firuzə Hüseynova.*

***Ünvan: Naxçıvan şəhəri, H.Əliyev 42***
***Telefon: 545-39-75***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 373